*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (3) 2025*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:16.04.2025*
*Kabul tarihi |Accepted:25.05.2025*
*Yayın tarihi |Published:25.06.2025*

**Səbuhi Quliyev**
https://orcid.org/0009-0003-4300-9662
*PhD, Baku State University, history department, Azerbaijan, quluyevsebuhi67@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Quliyev, S. (2025).Gürcüstanın 44 günlük Vətən müharibəsinə reaksiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (3), 332-340.

# Gürcüstanın 44 günlük Vətən müharibəsinə reaksiyası

***Öz***

*Məqalədə ölkələrarası münasibətlərin formalaşması tarixi, Gürcüstan hökümətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində sərgilədiyi münasibət və bu münaqişə fonunda apardığı balanslı xarici siyasət əks olunur. Habelə, müəllif Gürcüstanın müharibənin başlandığı vaxtdan etibarən tərəflər arasında vasitəçilik səylərindən, bölgədə təhlükəsiz mühitin yaradılması cəhdlərindən bəhs edir. Eyni zamanda Qarabağda hərbi əməliyyatlar zamanı ermənilərin Gürcüstanın Cavaxate bölgəsində təxribata əl atmaq cəhdləri, onların ölkədə millətlərarası münasibətlərin inkişafına zərər verəcək planlarının iflası məqalədə qeyd olunur. Araşdırmada həmçinin, Gürcüstan Baş nazirinin, keçmiş Prezident M.Saakaşvilinin müharibəyə reaksiyaları ilə yanaşı, mövcud münaqişə zamanı Gürcüstan Parlamentində gürcü, erməni və azərbaycan əsilli deputatların çıxışları, erməni əsilli siyasətçilərin tarixi saxtalaşdıraraq təhrif olunmuş məlumatları ictiamiyyətə açıqlamalarından bəhs edilir.*

***Açar sözlər:*** *Azərbaycan, Gürcüstan, Ermənistan, Parlament, İlham Əliyev, Cənubi Qafqaz*

# Georgia's Response to the 44-Day Patriotic War

***Abstract***

*The article reflects the history of the formation of interstate relations, the position of the Georgian government in the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict and the balanced foreign policy pursued against the backdrop of this conflict. The author also discusses Georgia's mediation efforts between the parties since the beginning of the war and its attempts to create a safe environment in the*

BY NC
Creative Commons Licence

*region. The article also notes the Armenian attempts to resort to provocation in the Javakheti region of Georgia during the military operations in Karabakh and the failure of their plans to harm the development of ethnic relations in the country. The reactions of the Georgian Prime Minister and former President M. Saakashvili to the war, the speeches of Georgian, Armenian and Azerbaijani deputies in the Georgian Parliament during the current conflict and the public disclosure of distorted history by politicians of Armenian origin are also discussed.*

**Keywords:** *Azerbaijan, Georgia, Armenia, Parliament, Ilham Aliyev, South Caucasus*

## Giriş

Gürcüstan hökümətinin 44 günlük Vətən müharibəsindəki mövqeyinə toxunarkən ilk növbədə Azərbaycan-Gürcüstan Respublikaları arasında diplomatik əlaqələrin yaranması tarixini nəzərdən keçirmək lazımdır. Belə ki, Respublikalar arasında diplomatik münasibətlər 1992-ci il 18 noyabr tarixində yaradılıb. Bununla yanaşı, 1995-ci il fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı il martında isə Tbilisidə Azərbaycan səfirliyinin açılması ikitərəfli əlaqələrin gələcək inkişafına stimul verib. Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına Prezident seçilməsindən sonra iki ölkə arasında siyasi, iqtisadi, kommunikasiya və digər sahələri əhatə edən müqavilələr imzalandı. 90-cı illərdə və XXI əsrin əvvəllərində prezidentlərin qarşılıqlı səfərləri hökümətlərarası münasibətlərin inkişafı mexanizminə əsaslı təsir etdi. Azərbaycan regionda ən yaxın müttəfiqlərindən biri olan Gürcüstanla bir sıra regional və qlobal məsələlərdə vahid mövqedən çıxış edir. Heydər Əliyevin və Eduard Şevardnadzenin əsasını qoyduğu strateji əməkdaşlıq bu günə qədər bütün sahələr üzrə davam edir. Bu gün Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, Bakı-Tbilisi-Qars və Trans-Anadolu Qaz Boru Kəməri kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Qeyd olunan layihələr həmin ölkələri bir-birinə strateji cəhətdən bağlayır. Buna paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Siyasi yaxınlaşma iqtisadi inteqrasiya fonunda baş verir və strateji xarakter alır.

## 1. Vətən müharibəsi və Gürcüstan

2020-ci ilin İkinci Qarabağ Müharibəsi regional və beynəlxalq səviyyədə əhəmiyyətli nəticələrə yol açdı, xüsusən də qonşu ölkələr üçün, o cümlədən Gürcüstan. Müharibə, geopolitik gərginlikləri artıraraq, Ermənistana və Azərbaycana qarşı ziddiyyətli maraqları olan Gürcüstan kimi dövlətlər üçün mürəkkəb çağırışlar yaratdı. Gürcüstanın hər iki tərəfə silah göndərmək üçün keçid yolu olaraq coğrafi mövqeyi və daxili etnik icmaları (erməni və azərbaycanlı, red.-S.Q) onu münaqişənin təlatümünə qarşı xüsusilə həssas etdi. Gürcüstanın erməni və azərbaycanlı mənşəli siyasətçilərinin müharibə zamanı bir tərəfi dəstəklədiklərini açıq şəkildə

bildirməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Bu etnik icmaların münaqişəyə birbaşa cəlb olunma ehtimalı Gürcüstan rəhbərliyini narahat edirdi, çünki bu, daxili sabitliyi poza bilərdi. Qısacası, Gürcüstanın İkinci Qarabağ Müharibəsindəki mövqeyi olduqca çətin və həssas idi. Ölkə, qonşu dövlətlərin qarşılıqlı maraqlarını idarə etməyə çalışarkən daxili sabitliyi qorumağa çalışırdı, bu da onu münaqişə dövründə regionun ən geopolitik həssas ölkələrindən birinə çevirirdi. Digər bir tərəfdən münaqişənin daha da dərinləşməsi Gürcüstan üçün ciddi iqtisadi fəsadlara yol aça bilər və Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu və Cənub Qaz Dəhlizi kimi kritik infrastruktur və strateji layihələrə zərər verə bilər. Covid-19 böhranı fonunda Cənubi Qafqaz ölkələri artıq iqtisadi çətinliklərlə mübarizə aparırdı, lakin hərbi münaqişə iqtisadi narahatlıqları daha da artırır. İqtisadi baxımdan, Gürcüstanın tranzit potensialı münaqişədən ciddi şəkildə təsirlənə bilər. Çünki Tbilisi Ermənistan və Azərbaycanla sıx ticarət və iqtisadi əlaqələrə malikdir və bu ölkələr Gürcüstanın turizm sektoruna əhəmiyyətli töhfə verirlər. 2020-ci ilin yanvar-iyun aylarında Azərbaycan Gürcüstanın ixracında ikinci ən böyük ticarət tərəfdaşı olub. Davam edən münaqişə regiona xarici investisiya axınını azalda bilər ki, bu da davamlı iqtisadi inkişaf üçün mühüm rol oynayır (Tbilisi Armenians Rally Against Mtavari Arkhi TV's 'Pro-Azerbaijani' Coverage, 2020). Hələ 2020-ci il iyul ayında ermənilərin Tovuz istiqamətində Azərbaycan mövqelərinə qarşı təxribatları fonunda müxtəlif mətbuat orqanlarında Gürcüstanın Serbiyadan gələn silahları Ermənistana çatdırılması üçün tranzit rolunu oynaması qeyd olunurdu. Prezident İlham Əliyev bununla bağlı 19 sentyabrda Gürcüstanın etibarlı tərəfdaş olduğunu dilə gətirərək, bu məlumatların tamamilə əsassız olduğunu, Gürcüstanın öz ərazisindən silahların Ermənistana daşınmasına icazə vermədiyini qeyd etdi. Bir müddət sonra isə, 2020-ci il 27 sentyabrda hərbi əməliyyatların başlaması zamanı və döyüşlərin davam etdiyi dövrdə Gürcüstan öz hava məkanını Rusiyadan gələn silahların Ermənistana daşınmasının qarşısını almaq məqsədi ilə bağladı. Bu isə, Rusiyanın alternativ yollar axtarmasına gətirib çıxardı. Xəzər dənizindən keçərək İrana gələn tankerlərdəki hərbi avadanlıqlar İran vasitəsi ilə Ermənistana çatdırılırdı.

Eyni zamanda, Gürcüstanda hökümət ölkə ərazisində yaşayan etnik azərbaycanlı və erməni əhalisinin bir-birilərinə qarşı aqresiyyasının artacağından, Dağlıq Qarabağda gedən müharibənin öz ölkəsinə müyyən qədər təsir göstərərək, daxili sabitliyi pozacağından ehtiyat edirdi. Buna baxmayaraq, bir müddət sonra Gürcüstanın Cavaxete vilayətində çoxluq təşkil edən ermənilər müxtəlif təxribatlara əl atdılar. Bu təxribatlardan biri məhz 2020-ci il 1 oktyabrında 300 nəfərdən ibarət erməni icmasının Gürcüstanın müxalifətə meylli "Mtavari Arkhi TV" ofisinin qarşısında nümayiş keçirərək kanalın davam edən Azərbaycan-Ermənistan döyüşləri ilə bağlı "Azərbaycan tərəfini tutan" yayımını etiraz etməsi oldu. Həmin bölgədə

yaşayan yerli əhali Qarabağda döyüşmək üçün könüllü təşkilatlar yaradırdı. Bəzi insanlar hətta Gürcüstanın Türkiyə ilə sərhədini müvəqqəti olaraq bağlamağa nail olmuşdu. Bu, Gürcüstan siyasətçilərində və cəmiyyət içərisində qorxu və narahatlıq doğurmuşdu. Belə təxribatlardan digəri isə, etnik ermənilərin Ninotsminda-Bavra keçid məntəqəsində güya "humanitar yardım" adı altında döyüşlərə müdaxilə etmək istəyi oldu. Bu təxribatın qarşısı da, Gürcüstan hökuməti tərəfindən alındı. Hətta, müxtəlif xarici qüvvələr və erməni diasporu nümayəndələri tərəfindən qızışdırılan və maliyyələşən gürcü müxalifəti Azərbaycana qarşı qərəzli mövqe səgiləyirdi. Belə ki, Azərbaycanda millətlərarası münasibətlərin inkişaf səviyyəsi çox yüksək olduğunu və etnik azlıqlara hər hansı bir fərq qoyulmadığını görməzdən gələn gürcü müxalifəti döyüşlərin qızğın çağında Azərbaycana qarşı ərazi iddiası irəli sürdülər (Statement from The Apostolic Nunciature, 2020). Oktyabrın 3-də Gürcüstanın Milli Təhlükəsizlik Şurasının Dağlıq Qarabağdakı hadisələrlə bağlı iclasından sonra keçirilən mətbuat konfransında Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəhbəri Qriqol Liluashvili Türkiyədən Azərbaycana Suriya döyüşçülərinin keçməsinə Tbilisinin icazə verməsi ilə bağlı xəbərləri "dezinformasiya" adlandırıb. Döyüşçülərin Gürcüstan ərazisindən hərəkəti ilə bağlı məlumatların tamamilə əsassız olduğunu bildirən Liluashvili bu məzmunlu dezinformasiyaların yayılması Gürcüstanda, ümumilikdə regionda vəziyyəti gərginləşdirmək məqsədi daşıdığını qeyd etdi (Impact of the Current Situation in Nagorno Karabakh on Georgia's National and Regional Security, 2021). Həmçinin Gürcüstanın Milli Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan arasında gərginliyin başlamandığı vaxtdan etibarən Gürcüstandan hər iki ölkəyə hava və quru yolu ilə hərbi yüklərin daşınmasına icazə verilmədiyini qeyd edib. Şura bildirib ki, *"vətəndaş malları və yükləri Gürcüstandan heç bir maneə olmadan, bütün istiqamətlərə, o cümlədən Azərbaycana və Ermənistana, təhlükəsiz şəkildə daşınır"* və əlavə edib ki, *"yüklərin daşıma intensivliyi yüksəkdir və silahlı münaqişənin yenidən başlamasından sonra dəyişməyib"*. Şura onu da qeyd edib ki, *"biz Dağlıq Qarabağda Azərbaycan və Ermənistan arasında böhran fonunda, Gürcüstanda və ya xaricdə olan bəzi dağıdıcı qüvvələrin dostluğumuza və tarixi təcrübəmizə kölgə salmasına imkan verməməliyik"*. Milli Təhlükəsizlik Şurası sədri ictimaiyyətə açıqlamasında Gürcüstanın həmişə gürcülərin və müxtəlif millətlərin, o cümlədən azərbaycanlıların və ermənilərin sülh şəraitində birgə yaşamasına qürur duyduğundan, bunun ümumi birlik naminə ortaq nailiyyət olaraq əhəmiyyətindən söhbət açıb. Habelə, regionda münaqişəli vəziyyətin intensivləşməsinin qarşısını almaq məqsədi ilə qarşıdurma tərəflərinin Tbilisidə görüşünün təşkil edilməsi məsələlərində kömək etməyə hazır olduğunu bir daha təsdiqləyib. Şura bildirib: *"Bu bizim ortaq marağımızdır ki, hərbi qarşıdurmanı tez bir*

*zamanda dayandıraq və bölgədə sülhü bərpa edək”* (Georgia's Potential Role in South Caucasus Peacemaking, 2025).

Gürcüstanın Xarici İşlər Nazirliyi 10 noyabrda Qarabağ münaqişəsinin həlli ilə bağlı əldə olunmuş razılaşmaya reaksiya verərək, “Ermənistan və Azərbaycan arasında əldə olunan atəşkəs razılaşmasının münaqişənin tam miqyaslı həllinə töhfə verəcəyinə ümid etdiyini” bildirib. *“Gürcüstan tərəflər arasında dialoqu dəstəkləyir”,* – deyə Nazirlik qeyd edib və əlavə edib ki, Tbilisi beynəlxalq ictimaiyyətlə birlikdə sülh prosesinə töhfə verməyə hazırdır. Gürcüstan Prezidenti Salome Zurabişvili noyabrın 10-u günortadan sonra Qarabağ razılaşmasına reaksiya verərək qeyd edib ki, *“Qafqazda yeni bir dövr başlayır. Faciəvi müharibəni dayandırdıqları üçün dostlarımız Ermənistan və Azərbaycanı təbrik edir, bütün vasitəçilərə təşəkkür edirəm”. Qurbanların ailələrinə başsağlığı verirəm. Sülh və sabitliyin alternativi yoxdur!”* – Prezident Zurabişvili şəxsi *“X”* profilində bildirib. Daha sonra mətbuata açıqlamasında Gürcüstan Prezidenti beynəlxalq ictimaiyyətin aktiv səyləri və çoxtərəfli beynəlxalq mexanizmlərin tətbiqi uzunmüddətli sülhün təmin olunmasına təsir edəcəyini və bu da bütövlükdə region üçün yeni imkanlar açacağını dilə gətirib (Georgian Foreign Ministry Reacts to Karabakh Deal, 2020).

**2. Gürcüstan Parlamentində müxtəlif partiyalardan olan siyasətçilərin şərhləri**

Sentyabrın 27-28-də Gürcüstanın hakim "Gürcüstan Arzusu" (GD) partiyası və müxalifət partiyalarının siyasətçiləri, Dağlıq Qarabağdakı davam edən hərbi qarşıdurmaya reaksiya verərək, gərginliyin azalmasını və sülhün bərqərar olmasını çağırıblar. Parlamentin Müdafiə və Təhlükəsizlik Komitəsinin sədri Millət vəkili İrakli Sesiashvili Xarici İşlər Nazirliyi vasitəsi ilə tərəflər arasında daimi əlaqələrin saxlanıldığını, regionda sülh və atəşkəsin təmin olunmasını vacibliyini çağırır. Millət vəkili həmçinin əlavə edib ki, *“Əgər tərəflər (Ermənistan və Azərbaycan, red.-S.Q) Gürcüstanın sülh danışıqlarında iştirak etməsini istəyirlərsə, biz tam hazırıq. amma təəssüf ki, bu gün bunun əlamətlərini görmürük. Beynəlxalq icma da [bu prosesdə] iştirak edir və biz də lazım olduqda iştirak edə bilərik. Hər hansı bir istiqamətdə, o cümlədən humanitar sahədə, hər iki tərəfə kömək etməyə hazırıq”* (Azerbaijani-Georgian Relations ‘Excellent, Aliyev Says, 2025).

Parlamentin vitse-spikeri, millət vəkili, “Avropa Gürcüstanı” partiyasından olan Sergi Kapanadze öz çıxışında bu mərhələdə Gürcüstanın əsas mövqeyinin sülhə dəstək vermək, regionda hadisələrin daha da gərginləşməsinin qarşısını almaq olduğunu qeyd edib. Həmçinin bu çətin vəziyyətdə Gürcüstan hökumətinin müxtəlif alternativlər hazırlaması və fərqli ssenarilərə hazır olmasını dilə gətirən deputat müharibə halında çoxlu ssenarilər inkişaf edə

biləcəyini və bunun baş verəcəyi halda region ölkələrinə olduqca mənfi təsir göstərəcəyini dilə gətirib.

Əmək Partiyasının lideri Şalva Natelaşvili nitqi zamanı Cənubi Qafqaz ölkələrinin hökumətlərinin Tbilisidə Cənubi Qafqaz Təhlükəsizlik Şurası yaratmağa çağıraraq, bununla regionda baş verən hər hansı bir münaqişəni həll etmək üçün vasitəçilərə ehtiyac olmayacağını qeyd edib. *"Biz bir dəfə və hamı ilə anlamalıyıq ki, heç bir regional imperiya ölkəsi Gürcüstanın, Ermənistanın və Azərbaycanın müstəqil olmasını istəmir"* -deyə deputat əlavə edib (Azerbaijani-Georgian Relations Excellent, Aliyev Says, 2025).

Hərbi ekspert və "Ağmaşenebeli Strategiyası" siyasi hərəkatının üzvü, Teona Akubardia, hökuməti Milli Təhlükəsizlik Şurasının iclasını çağırmağa səsləyib. O hesab edir ki, Qarabağda baş verən hadisələrin Gürcüstan üçün hansı təhlükələr yarada biləcəyini qiymətləndirmək vacibdir. Gürcüstan hökuməti bu genişmiqyaslı müharibənin Gürcüstan üçün yaratdığı təhdidləri və Gürcüstanın münaqişəni sülh yolu ilə həll etmək üçün ata biləcəyi addımları qiymətləndirmək məqsədilə vaxtında Milli Təhlükəsizlik Şurasının iclasını çağırılmalı olduğunu bildirib. *"Ölkədə regional sülhün təmin edilməsi vacibdir və həm əməkdaşlıq, həm də qanunvericiliyimiz tələb etdiyi kimi, hər iki ölkə ilə tərəfdaşlıq münasibətlərini qoruyub saxlamaq lazımdır",* – deyə Akubardia bildirib (In Quotes: Georgian Politicians on Nagorno-Karabakh Developments, 2025).

Keçmiş Prezident Mixail Saakashvili isə qeyd edib ki, Azərbaycan və Ermənistan arasında baş verən hərbi qarşıdurmaların regionda və millətlərarası rifah naminə sülhün vacib olduğu hər kəs üçün böyük narahatlıq doğurur. Bundan əlavə, Sabiq Prezident qeyd edib: *"Mənim mövqeyim aydındır və ərazi bütövlüyü prinsipinə əsaslanır, bu da Dağlıq Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu bildirir və heç bir şey bu faktı dəyişdirməyəcək. Eyni zamanda, münaqişə sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda, regiondan qovulmuş hər kəsin öz evlərinə qayıtmaq hüququ, orada yaşayanların isə sülh içində yaşamaq hüququ olmalıdır və onların hüquqları qorunmalıdır".* M. Saakaşvilinin, hüquqi baxımdan, Qarabağın Azərbaycanın bir hissəsi olması ilə bağlı verdiyi bəyanat hökümət daxilində eləcə də erməni icması arasında reaksiyalar doğurdu: *"Mənim mövqeyim birmənalıdır və ərazi bütövlüyü prinsipinə əsaslanır, bu da o deməkdir ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının suveren ərazisidir".* Bu bəyanat etnik erməni əhalisinin böyük bir hissəsini M.Saakaşvili və onun partiyası olan Vahid Milli Hərəkatdan (UNM) uzaqlaşdırdı, eyni zamanda etnik azərbaycanlılar arasında sevinclə qarşılandı. Bundan başqa, Gürcüstanın bu münaqişəyə yanaşmasında yeni bir element də nəzərə çarpdı. Tbilisi fəal diplomatiya yürüdərək

Bakı və İrəvan arasındakı qarşılıqlı inamsızlığı azaltmaq və regional təhlükəsizliyə qarşı yaranan geosiyasi təhdidləri məhdudlaşdırmaq üçün müsbət rol oynaya biləcəyini vurğuladı (Georgian Foreign Ministry Reacts to Karabakh Deal, 2020).

Bundan əlavə, Gürcüstan Parlamentində təmsil olunan azərbaycanlı deputatlar, habelə siyasətçilər Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini müdafiə edərək Azərbaycan hökümətini dəstəklədiklərini bildirdilər. Məsələn, Gürcüstanın "Gürcü Arzusu" partiyasından olan Ruslan Hacıyev əhalini erməni yalanlarına uymamağa, həmrəylik nümayiş etdirməyə çağırdı. Eyni zamanda, digər deputat - Vahid Milli Hərəkat partiyasından olan Azər Süleymanov isə, şəxsi "Facebook" postunda Gürcüstanda yaşayan azərbaycanlı əhalisini münaqişəyə cəlb etməyə çağırmışdı: *"Siz əmin ola bilərsiniz ki, 1990-cı illərdə Qarabağ və Abxaziya müharibələrində könüllü iştirak edən bizim həmvətənlərimiz, indi də hər hansı bir çətinliyə Azərbaycanımızın və Böyük Vətənimiz Gürcüstanın ərazi bütövlüyü üçün hazırdırlar"* (Azerbaijani-Georgian Relations Excellent, Aliyev Says, 2025).

2021-ci ildə Gürcüstan Baş naziri İrakli Qaribaşvili Cənubi Qafqazda sabitliyi təşviq etmək məqsədilə "Sülhsevər Qonşuluq Təşəbbüsü" adlı yeni bir platformanın yaradıldığını elan etdi. O, bildirdi ki, bu üçtərəfli dialoq mexanizmi vasitəsilə Gürcüstan *"dialoqu və qarşılıqlı etimadı təşviq edəcək, həmçinin ABŞ və Aİ tərəfdaşlarımızla birlikdə regional məsələlərin həllinə yönəlmiş praktiki həllərin icrasına töhfə verəcək."* Gürcüstanın dəfələrlə qonşuları ilə dinc danışıqları davam etdirmək və asanlaşdırmaq üçün hazır olduğunu bəyan edən Qaribaşvili xüsusilə vurğulayıb ki, sülh prosesi əsasən regionun iki ölkəsi tərəfindən müəyyən olunmalı, xarici oyunçuların diktəsi ilə formalaşmamalıdır (Türkiye'de Polonya - Türkiyede Polonya, 2025).

2023-cü il 7 iyul tarixində İrakli Qaribaşvilinin Ermənistan Baş naziri Nikol Paşinyanla Batumidə görüşü oldu. Qaribaşvilinin Paşinyanla görüşü əsnasında ikitərəfli münasibətlər və regional rifah məsələləri müzakirə edildi. Sentyabr ayında isə Qarabağdakı vəziyyət kritik həddə çatdıqda, Baş nazirlər yenidən telefon danışığı apararaq münaqişənin gərginliyinin azaldılması məsələsini müzakirə etdilər. Bundan bir qədər sonra, həmin ilin oktyabr ayının 8-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Azərbaycan Prezidenti İlham Əliyev Tbilisidə regional təhlükəsizlik məsələlərini müzakirə etdilər. Görüşün əsas mövzularından biri son Qarabağ toqquşmalarından qaynaqlanan təcili regional təhlükəsizlik narahatlıqları idi. Görüş zamanı Prezident Əliyev Ermənistan rəhbərliyi ilə dərhal sülh danışıqlarına başlamağa güclü iradə nümayiş etdirərək, bu mühüm danışıqların Gürcüstanda keçirilməsini təklif etdi: *"Biz bu məsələyə hazır olan bir ölkə olaraq, əgər Ermənistan da razılıq verərsə, aidiyyəti qurumlarımızın rəhbərləri dərhal Gürcüstana gələrək ikitərəfli və*

*üçtərəfli görüşlər keçirə bilərlər,"* – Prezident İ.Əliyev görüşdən sonra keçirilən birgə mətbuat konfransında bildirdi. Qaribaşvili isə cavab olaraq vurğuladı ki, *"Biz bu vasitəçilik və ya dostluq formatını yaratmaqda rolumuza sadiqik. Tbilisi bu prosesdə iştirak etməyə həmişə hazırdır"* (Tbilisi Armenians Rally Against Mtavari Arkhi TV's Pro-Azerbaijani Coverage, 2020).

Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan tərəfindən Bakıda, Qarabağdakı zəfərini qeyd olunması zamanı birgə hərbi paradda, "3+3" təhlükəsizlik formatı təklifinin irəli sürdü. Bu təklif, üç yerli aktoru (Azərbaycan, Gürcüstan və Ermənistan) və üç regional hegemonu (Türkiyə, Rusiya və İran) daxil etməyi nəzərdə tuturdu. Rusiya bu təşəbbüsü dəstəkləyərkən, Gürcüstanın rəsmi hökuməti bu təklifi rədd etdi. Digər regional oyunçulardan, xüsusilə də Rusiyadan fərqli olaraq, Gürcüstanın sülh prosesində rolunu hansısa geosiyasi maraqlarla deyil, regionda sabitliyi təşviq etməklə əsaslandırmaq olar.

**Nəticə**

Gürcüstan hökumətinin 44 günlük Vətən müharibəsi zamanı və sonrasında sərgilədiyi mövqe balanslı və ehtiyatlı siyasət yürütmək prinsipi üzərində qurulub. Gürcüstan, Cənubi Qafqaz regionunda geosiyasi baxımdan mühüm mövqe tutan bir ölkə kimi münaqişəyə rəsmi şəkildə müdaxilə etməyib və tərəflərdən heç birinə açıq dəstək göstərməyib. Bu yanaşma Gürcüstanın daxili və xarici siyasət maraqları, eləcə də bölgədə sabitliyi qorumaq niyyəti ilə əlaqələndirilir. Azərbaycan və Ermənistan arasında baş verən bu müharibə, regionun təhlükəsizlik sisteminə və Gürcüstanın strateji maraqlarına təsir göstərə biləcək ciddi hadisələrdən biri idi. Gürcüstan, hər iki ölkə ilə sıx iqtisadi və siyasi əlaqələrə malik olduğundan, neytrallığı qorumaq üçün bir sıra tədbirlər həyata keçirdi. Xüsusilə, Gürcüstan hökuməti münaqişə zamanı öz ərazisindən hərbi yüklərin daşınmasına icazə vermədiyini bəyan edərək, tərəflər arasında gərginliyin daha da artmasına şərait yaratmamaq siyasətini yürüdüb. Gürcüstanın Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. İki ölkə arasında iqtisadi, enerji və nəqliyyat sahələrində uzunmüddətli əməkdaşlıq mövcuddur. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr Gürcüstanın Azərbaycanla əməkdaşlığının əsas sütunlarıdır. Bu baxımdan, Gürcüstanın müharibə zamanı və sonrasında Azərbaycanın ərazi bütövlüyünə hörmət etməsi və bu məsələdə beynəlxalq hüququn prinsiplərinə sadiqliyini ifadə etməsi iki ölkə arasında strateji əlaqələrin möhkəmliyini göstərir. Digər tərəfdən, Gürcüstan Ermənistanla da tarixi və mədəni əlaqələrə malikdir. Gürcüstanda erməni icmasının olması və bu ölkənin Ermənistanla müəyyən iqtisadi əməkdaşlıq qurması, rəsmi Tbilisinin balanslı siyasət aparmasını zəruri edirdi. Gürcüstan hökuməti müharibə zamanı və sonrasında sülh çağırışları edərək, Cənubi Qafqazda davamlı sabitliyin yalnız diplomatik həll yolları ilə təmin edilə biləcəyini vurğulayıb.

Gürcüstanın vasitəçilik təşəbbüsləri və bölgədə sülhün bərqərar olunmasına verdiyi dəstək, onun münaqişəyə münasibətdə ehtiyatlı və konstruktiv siyasət apardığını göstərir. Bundan əlavə, Gürcüstan Parlamentində və ictimai müzakirələrdə münaqişənin Gürcüstana və bütövlükdə regiona təsiri ilə bağlı müxtəlif baxışlar mövcud olub. Müxtəlif siyasi qüvvələr bu məsələdə fərqli mövqelər ifadə etsələr də, ümumi yanaşma Gürcüstanın sabitliyini qorumaq və regional təhlükəsizliyə töhfə vermək istiqamətində olub. Gürcü cəmiyyətində həm Azərbaycan, həm də Ermənistanla dostluq münasibətlərinin qorunmasının vacibliyi vurğulanıb və hökumətdən balanslı siyasət aparmaq tələb edilib.

Nəticə etibarilə, Gürcüstan hökuməti 44 günlük Vətən müharibəsi zamanı neytral mövqe tutaraq, öz maraqlarını və regional sabitliyi qorumaq məqsədilə ehtiyatlı siyasət həyata keçirmişdir. Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquq çərçivəsində dəstəkləməsi, eyni zamanda, Ermənistanla münasibətlərini qoruyaraq bölgədə sülhün bərqərar olması üçün çalışması, Gürcüstanın Cənubi Qafqaz siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Bu balanslı yanaşma Gürcüstanın gələcəkdə də regional sülh prosesində rol oynamaq potensialını nümayiş etdirir. Habelə, münaqişədən sonra Cənubi Qafqazda formalaşan yeni nizam sonrakı illərdə Gürcüstana da əhəmiyyətli təsir göstərəcək. Çünki yeni nəqliyyat kommunikasiya xətlərinin inşası, dünya bazarlarına çıxışın alternativ yollarının yaradılması və Türkiyənin "3+3" formatı əsasında region ölkələrinin iqtisadi maraqlarına cavab verən, bölgədə sülh və təhlükəsizliyi qaranti edəcək təşəbbüsü Gürcüstanı da regionun digər dövlətləi kimi əhatə edəcəkdir.

**Ədəbiyyat siyahısı**

Azerbaijani-Georgian Relations 'Excellent,' Aliyev Says, 2025 https://civil.ge/arch

Georgian Foreign Ministry Reacts to Karabakh Deal, 2020, https://civil.ge/archives/381766.

Impact of the Current Situation in Nagorno Karabakh on Georgia's National and Regional Security, Georgian Strategic Analysis Cente, Tibilisi, 2021, https://foreignpolicycouncilcom

In Quotes: Georgian Politicians on Nagorno-Karabakh Developments, 2025, https://civil.ge

Statement from The Apostolic Nunciature, Vaticange.org, 2020. https://vaticange.org/

Tbilisi Armenians Rally Against Mtavari Arkhi TV's 'Pro-Azerbaijani' Coverage, Civil.ge, October 1, 2020. https://civil.ge/archives/372330

Türkiye'de Polonya - Türkiyede Polonya, 2025, https://www.gov.pl/attachment/dc0